SAPARI
Akaki Gaxokidze küçəsi 11a
Tel: 0322 30 76 03, 599 40 76 03
www.sapari.ge

Sapari / საფარი

# Evlilik və ailə əlaqələrində qadınların mülkiyyət hüquqları

*“Ailədə qadın və kişinin mülkiyyət hüquqları bərabərdir.”*

## Ər-arvadın mülkiyyət hüquqları

Nigahda olan ər-arvadın bir-birinə qarşı mülkü hüquqları və məsuliyyətləri var. Amma bunun üçün nigahın qeydiyyatdan keçməsi və ər-arvadın birlikdə yaşaması vacibdir. Qanunvericilik dini nigahı tanımır.

Evlilik müddətində qazanılan mülk ər-arvadın ümumi mülkü sayılır. Tərəflərdən biri ev işlərini gördüyü, uşağa baxdığı və ya başqa səbəbə (xəstəlik, ailə mühiti, təhsil) görə işləyə bilməyib və özünün gəliri olmayıbsa da bu mülk yenə ümumi mülk sayılır.

Ümumi mülkü kirayə vermək, satmaq, hədiyyə etməkdə hər iki tərəfin bərabər hüquqları var, amma bu digər tərəfin razılığı ilə olmalıdır.

Tez-tez tərəflər bir-birindən xəbərsiz və ya razılığı olmadan mülkü satır, girov verir. Bu zaman zərərçəkən tərəfin hüquqları yalnız iki halda qorunur: zərərçəkən tərəf müqavilənin batil olunmasını tələb edib, üçüncü şəxsin – satın alan şəxsin pis niyyətli olduğunu sübut edərsə və ya yoldaşının verdiyi ziyanın ödənməsini tələb edərsə.

## Ər-arvadın şəxsi mülkü

Sizə evlilik müddətində miras qalan və ya hədiyyə edilən mülk (qızıl, torpaq sahəsi, ev) sizin şəxsi mülkünüzdür. Bu mülklərin satışı, kirayə verilməsi, hədiyyə edilməsinə yoldaşınızın icazəsi olmadan qərar verə bilərsiniz.

Boşandığınız təqdirdə sizin şəxsi mülkünüz siz və yoldaşınız arasında bölünmür o yalnız sizindir.

Ər-arvadın şəxsi mülkü, evlilik müddətində ər-arvad şəxsi mülkün dəyərini artırdığı təqdirdə bölünür. Məsələn əgər torpaq sahəsində ev tikilbsə və ya yaşayış binası remont olunubsa.

# Aliment

Alimenti valideyinlər uşaqları üçün ödəyirlər. Alimenti uşaqla bərabər yaşamayan valideyin ödəyir. Uşaqla birlikdə yaşayan valideyin, ərizəylə uşaq üçün aliment və başqa xərclər üçün (məsələn uşağın xəstəxana xərcləri)  müraciət edə bilər. Aliment üçün müraciət edən tərəf məhkəmə xərclərini ödəməkdən azaddır.

Alimentin ödənilməsi üçün valideyinlərin evli olub-olmamasının fərqi yoxdur. Əgər uşağın doğum haqqında şəhadətnaməsində yalnız anasının adı yazılıbsa, ana uşağın atasının kimliyini təsdiq etmək üçün müraciət edə bilər. Çünki yalnız qanunla uşağın atası olaraq təyin edilmiş şəxsə alimentin ödənilməsi öhdəliyi verilə bilər.

Alimentin miqdarına məhkəmə qərar verir. Alimentin təyin ediləmsi üçün, məhkəmə hər iki tərəfin mülkünü və gəlirini hesablayır. Valideyin alimenti uşaq həddi-buluğa çatanadək (18 yaşınadək) ödəməlidir. Əgər şikayət edən tərəf keçmişdə də aliment tələb edirdisə, o, məhkəmə yoluyla keçmiş üç ilin alimentini ala bilər.

Məhkəmə qərarıyla təyin olunan alimentin miqdarı gələcəkdə məhkəmə yoluyla artırıla bilər; valideyin uşağın böyüdükcə təhsil və gündəlik xərclərinin artması səbəbiylə, təyin olunan alimentin miqdarının artmasını tələb edə bilər.

# Vərəsəlik hüququ

Qanuni və vəsiyyətlə vərəsəlik mövcuddur. Qanuni varis vəfat edən şəxsin mülkünün onun qanuni varisinə verildiyi şəxsdir. Vəsiyyətlə varis isə, vəfat edən şəxsin vəsiyyətlə mülk qoyduğu şəxsə deyilir.

Yadınızda saxlayın qadınlar və kişilərin vərəsəlik hüququ bərabərdir. Varis vərəsəliklə qalan mülkə sahib olmaq üçün mülkü qəbul etməlidir, bunun üçünsə varisi olduğu şəxsin vəfatından altı ay müddətində notariusa müraciət etməlidir.

Əgər altı ay ərzində varis notariusa müraciət edə bilməyibsə, onda mülkə doğrudanda sahib olduğunu ( varis ona miras qalan evdə yaşayırsa, o evin açarı varsa, evi qoruyub istifadə edirsə) sübut etməlidir. Varis altı ay ərzində ona qalan mülkü qəbul etməlidir, əks təqdirdə ona qalan mülkü itirə bilər.

